*AMEA Filologiya və sənətşünaslıq, 2026, № 1* *ISSN 2663-4368*
*Səhifə: 19-30* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2026.1.19*

# Türk romanının inkişaf tarixinə bir nəzər

**Eşqanə Babayeva**
Filologiya elmləri doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: eshqane@mail.ru
ORCID iD: https://orcid.org/0000-0002-4934-4168

***Xülasə.*** Məqalədə Türkiyə romanının yaranması, formalaşması və inkişaf mərhələləri tarixi-müqayisəli, təsviri və sistemli təhlil metodları əsasında araşdırılmışdır. Tədqiqatın əsas məqsədi XIX əsrin ikinci yarısından etibarən Türkiyə ədəbiyyatında meydana çıxan roman janrının keçdiyi inkişaf yolunu izləmək, onun başlıca mərhələlərini müəyyənləşdirmək və türk ədəbi fikrində tutduğu yeri dəyərləndirməkdir.
Araşdırmada Tənzimat dövründə romanın maarifçilik ideyalarının və ictimai düşüncənin ifadə vasitəsi kimi formalaşması, Sərvəti-fünun mərhələsində psixoloji dərinliyin və "sənət üçün sənət" prinsipinin ön plana çıxması, Fəcri-ati topluluğunun keçid mərhələsi kimi rolu, Milli Ədəbiyyat dövründə milli kimlik və xalq həyatı mövzularının güclənməsi, Cümhuriyyət dövründə romanın mövzu və problematika baxımından genişlənməsi, 1970-1980-ci illərdə modernist və postmodernist axtarışların intensivləşməsi, qürbət və köç motivlərinin aktuallaşması, XXI əsrdə isə janr və üslub müxtəlifliyinin artması xronoloji ardıcıllıqla təhlil edilmişdir. Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, hər bir dövrün özünəməxsus estetik prinsipləri, mövzu dairəsi və aparıcı nümayəndələri türk romanının inkişaf istiqamətlərinin müəyyənləşməsində mühüm rol oynamışdır.
Aparılan təhlillər göstərir ki, türk romanı ilkin mərhələdə Qərb, xüsusilə fransız ədəbiyyatının təsiri altında formalaşsa da, zamanla milli məzmun və bədii-estetik xüsusiyyətlər qazanaraq özünəməxsus inkişaf yolu keçmişdir. Nəticədə bu janr həm türk ədəbiyyatının inkişafını əks etdirən aparıcı janrlardan birinə, həm də cəmiyyətin tarixi, mədəni və mənəvi təcrübəsini bədii şəkildə ifadə edən mühüm ədəbi hadisəyə çevrilmişdir.
***Açar sözlər***: *Türk romanı, Tənzimat ədəbiyyatı, Cümhuriyyət dövrü, modernizm, postmodernizm*

**Məqalə tarixçəsi:** göndərilib – 29.04.2026; qəbul edilib – 22.05.2026

# A review of the historical development of the Turkish novel

**Eshgana Babayeva**

***Abstract.*** The article examines the emergence, formation, and developmental stages of the Turkish novel based on historical-comparative, descriptive, and systematic analysis methods. The main purpose of the study is to trace the developmental path of the novel genre that emerged in Turkish literature from the second half of the nineteenth century onward, to identify its main stages, and to evaluate its position in Turkish literary thought.
The research analyzes, in chronological order, the formation of the novel during the Tanzimat period as a means of expressing enlightenment ideas and social thought; the emphasis on psychological depth and the principle of "art for art's sake" in the Servet-i Fünun period; the role of the Fecr-i Ati community as a transitional stage; the strengthening of themes such as national identity and the life of ordinary people in the National Literature period; the expansion of themes and problematics in the Republican era; the intensification of modernist and postmodernist explorations in the 1970s and 1980s; the increasing prominence of exile and migration motifs; and the growing diversity of genres and styles in the twenty-first century. The study finds that the distinctive aesthetic principles, thematic scope, and leading representatives of each period played a significant role in shaping the development direction of the Turkish novel.

The analysis shows that although the Turkish novel initially developed under the influence of Western literature, particularly French literature, it gradually acquired national content and artistic-aesthetic characteristics, thus following its own distinctive developmental path. As a result, the Turkish novel has become both one of the leading genres reflecting the development of Turkish literature and an important literary phenomenon expressing the historical, cultural, and spiritual experience of society.
***Keywords:*** *Turkish novel, Tanzimat literature, Republican period, modernism, postmodernism*

**Article history:** received – 29.04.2026; accepted − 22.05.2026

## Giriş / *Introduction*

Türk ədəbiyyatında roman janrı XIX əsrin ortalarından başlayaraq formalaşmış, XX əsrdə isə ən məhsuldar və parlaq mərhələsinə qədəm qoymuşdur. Bu janrın doğuluşu təsadüfi deyildi: ictimai-siyasi dəyişikliklər, onun ədəbi prosesə təsiri, qərbləşmə hərəkatı, ortaya çıxan yeni ədəbi təmayüllər və mətbuatın sürətli inkişafı romanı cəmiyyətin nəbzini tutan, onun ruhunu ifadə edən bir janra çevirdi. İlk tərcümələrdən başlayaraq təlif romanlara qədər uzanan bu yol, həm Avropa təsirini, həm də milli hekayəçilik ənənəsini özündə birləşdirərək yeni bir ədəbi sistem yaratdı. Bu janr artıq sadəcə bədii priyom deyil, bir millətin taleyini sözə çevirən güzgü idi.

### 1. Türk romanının yaranması və nəzəri mübahisələr

Türk ədəbiyyatında roman janrı ilk dəfə Tənzimat dövründə meydana çıxmışdır. Türk romanının təşəkkülü ilə bağlı müxtəlif mülahizələr mövcuddur. Ə.H.Tanpınar romanın türk ədəbiyyatına kənardan gətirildiyi fikrini irəli sürürdü [Tanpınar: 1977, s. 57]. P.N. Boratov isə bunun əksini düşünərək yazırdı: *"Türk romanı yalnız Avropa romanının təqlidi kimi ortaya çıxmamışdır. Onun klassik türk hekayəçiliyində kökləri vardır. Müasir Avropa romanı isə bu hekayəçiliyin üzərində peyvənd vəzifəsi görmüşdür"* [Boratov: 1982, s. 31]. C.Meriç də romanı *"milli gövdəyə vurulmuş peyvənd"* [Meriç: 1998, s. 343] kimi səciyyələndirmişdir. R.Finn isə qeyd edirdi ki, ilk romanlar fransız nümunələrindən təsirlənsə də, yaxın Şərq hekayə ənənəsindən də bəhrələnmişdir [Finn: 1984, s. 9]. Bu fikirlər Ə.Kabaklının "Türk ədəbiyyatı" [Kabaklı: 2020, s. 529] və Ə.C. Issının "Türk ədəbiyyatının romanla tanışlığı" [Issı: 2002, s. 16] məqaləsində də öz əksini tapır. B.Emil isə vurğulayır ki, Tənzimat dövründə türk yazıçıları Avropa, xüsusən Fransa ədəbiyyatının təsiri altında yaratsalar da, türk romanını yalnız Qərb təsiri ilə izah etmək düzgün deyil. Onun fikrincə [Emil: 1997, s. 147-148], bu ədəbiyyat klassik divan ədəbiyyatı, xalq ədəbiyyatı və Qərb ədəbiyyatının vəhdəti əsasında formalaşmışdır

Bu yanaşma türk romanının meydana gəlməsində milli hekayəçilik ənənəsinin mühüm rol oynadığını göstərir. R.Korkmaz [Korkmaz: 2018, s. 61] da bu fikri dəstəkləyərək qeyd edir ki, türk ədəbiyyatında Qərb üslubunda ilk hekayə və roman nümunələri tərcümələrdən təxminən on il sonra ortaya çıxmışdır. Bu dövrün əsas əsərləri Ə.Midhat Əfəndinin "Qissədən Hissə", "Lətaif-i Rəvayat", Emin Nihad bəyin "Müsamərətnaməsi", Şəmsəddin Saminin "Taaşşuk-ı Talat və Fitnat"ı və Namıq Kamalın "İntibah" romanıdır.

Türk ədəbiyyatının bu günkü mənada roman janrı ilə ilk tanışlığı Qərb ədəbiyyatından edilən tərcümələrlə başlamışdır. İlk tərcümə əsəri F.Fenelonun "Telemak" romanıdır (1862). Bu əsəri əvvəlcə Yusif Kamil Paşa tərcümə etmiş, sonralar isə Əhməd Vəfiq Paşa sadələşdirilmiş variantını türk oxucusuna təqdim etmişdir. Ardınca V.Hüqonun "Səfillər" ("Hekayeyi mağdurin" adı altında, imzasız, 1862), D.Defonun "Robinzon Kruzo" (1864, "Tərcümeyi Hekaye-i Robinzon", Ə.Lütfi Əfəndi tərəfindən ərəbcədən türkcəyə çevrilmiş), F.R.Şatobrianın "Atala" (1872, tərc. R.M. Əkrəm), B.Sent-Pyerin "Paul və Virginia" (1873, tərc. Ə.Siddiq) və digər əsərlər türk dilinə çevrilərək çap olunmuşdur.

Beləliklə, Avropa dillərindən türk dilinə tərcümələr vasitəsilə gələn bu nümunələr ədəbiyyata öz təsirini göstərmiş, roman janrına meyl artmışdır. O.Okay [Okay: 2004, s.307] qeyd edir ki, bu təsir bəzən təqlid, bəzən uyğunlaşdırma, bəzən də milli və məhəlli ünsürlərlə birləşərək yeni bir sintez yaratmış və Tənzimat sonrası Türkiyə ədəbiyyatında mühüm rol oynamışdır

XIX əsrin sonlarına doğru, forma və məzmun baxımından müəyyən qüsurları olsa da, ilk hekayə və roman nümunələri yazılmağa başlanmışdır. Türk ədəbiyyatında ilk təlif roman Ş.Saminin "Taaşşuk-ı Talat və Fitnat" əsəri hesab olunur [Çetin: 2002, s.21]. Bu roman 1872-ci ildə hissə-hissə, 1875-ci ildə isə kitab şəklində nəşr olunmuşdur. Fitnat xanımla Talat bəyin nakam eşqindən bəhs edən əsər klassik "Leyli və Məcnun" motivini xatırladır. Talat bəy sevgilisini görmək üçün qadın qiyafəsinə girərək onunla görüşür, lakin Fitnat xanımın zorla ərə verilməsi və intiharı ilə roman faciəvi sonluqla bitir. Əsərdə görücü üsulu ilə evlilik, qadın hüquqlarının tapdanması kimi məsələlər qaldırılır. Əsər milli hekayəçilikdən Qərb tipli romana keçid baxımından maraq kəsb edir.

Bununla yanaşı, bir sıra tədqiqatçılar ilk roman müəllifi kimi Əhməd Midhat Əfəndini göstərirdilər. Tənqidçi, publisist, yazıçı Midhat Əfəndi otuzdan artıq roman qələmə almışdır. Onun "Qissədən Hissə" (1870), "Lətaif-i Rəvayat" (1870-1895), "Həsən Mellah" (1874), "Fəlatün bəy ilə Raqim Əfəndi" (1875) kimi əsərləri sadə dildə yazılmış, maarifçi ideyaların təbliğinə yönəlmişdir. Yazıçı özü də, səmimi etiraf edərək yazırdı: *"Mənim məqsədim xalqa xitab etmək, onları aydınlandırmaq, dərdlərinə tərcüman olmaqdır"* [Yazgıç: 1940, s. 24-25].

K. Akyüzün sözləri ilə desək, Əhməd Midhat *"xalq hekayəsi deyil, xalq üçün hekayə və roman yazan"* [Akyüz: 1995, s. 87] böyük bir yazıçı idi.

Tənzimat dövrü türk ədəbiyyatında ədəbi məktəb yaradan görkəmli simalardan biri Namıq Kamal olmuşdur. O, həm Qərb, həm də Şərq ədəbiyyatını dərindən öyrənərək Avropa yönümlü türk ədəbiyyatının inkişafına mühüm töhfələr vermiş, yazıçı, şair, dramaturq, jurnalist, tənqidçi və mütərcim kimi çoxşaxəli fəaliyyət göstərmişdir. Onun yaradıcılığında tərəqqi, hürriyyət, siyasi müstəqillik, osmanlıçılıq və islamçılıq ideyaları ön planda idi. 1865-ci ildə qurulan Yeni Osmanlılar Cəmiyyətinin fəal üzvlərindən biri olan Namıq Kamal, İbrahim Şinasi, Əli Suavi və digər ziyalılarla birlikdə Osmanlı dövlətinin düzgün şəkildə qərbləşməsi və məşrutiyyətin elan olunması uğrunda mübarizə aparmışdır. Bu cəmiyyətin ideyaları müxtəlif mətbuat orqanlarında, xüsusən də Avropada nəşr edilən qəzetlərdə yayılırdı. N.Kamalın 1868-ci ildə Londonda nəşr etdiyi "Hürriyyət" qəzeti "Yeni Osmanlılar"ın sözcüsü kimi çıxış edirdi [Koçak: 2019, s. 7]. N.Kamal isə Birinci Jön Türk hərəkatının ideoloqu kimi də göstərilir [Akyılmaz: 1999, s. 233-252]. Dəfələrlə sürgün və siyasi təzyiqlərə məruz qalan N.Kamalın yaradıcılığında hürriyyət mövzusu xüsusi yer tutur. O, roman janrının inkişafına təkan verən iki mühüm əsər yazmışdır. Yazıçının "İntibah" romanı (1876) türk ədəbiyyatında ilk ədəbi roman sayılır. Əsərin ilkin adı "Son peşmanlıq" olmuş, lakin senzura səbəbindən dəyişdirilərək "İntibah və ya Əli bəyin sərgüzəşti" adı ilə nəşr edilmişdir. Bu əsər, Tənzimat dövrü nəsrində yeni bir mərhələnin başlanğıcı kimi qəbul edilir. N.Kamalın digər əsəri "Cəzmi" (1881) isə türk ədəbiyyatında ilk tarixi roman hesab olunur. Bu roman həm mövzu seçimi, həm də milli tarixi hadisələrin bədii şəkildə işlənməsi baxımından janrın inkişafında mühüm rol oynamışdır. Bundan başqa, S.S.Paşazadənin "Sərgüzəşt" (1888), M.Muradın "Turfandamı, yoxsa Turfamı?" (1892), N.Nazimin "Zəhra" (1896), R.M.Əkrəmin "Araba sevdası" (1898) və s. kimi əsərlər də türk romanının inkişafında böyük əhəmiyyətə malikdir.

Onu da qeyd edək ki, Tənzimat ədəbiyyatı iki mərhələyə ayrılır: Birinci Tənzimat mərhələsi (1860-1876) İbrahim Şinasi-Ziya Paşa-Namıq Kamal üçlüyü ilə xarakterizə olunur [Okay: 1994, s. 55]. Bu ədəbi məktəbin ən mühüm xüsusiyyəti sosial-siyasi xarakter daşıması idi. Ədəbiyyata janr, dil-üslub və ideya-məzmun baxımından bir çox yeniliklər gətirən bu üç şəxsiyyəti birləşdirən əsas amil onların siyasi görüşləri idi. O.Okay qeyd edir ki, *"hər üç şəxsiyyətin ədəbiyyat tarixindəki yerini öncəlikləri ilə belə sıralamaq olar: dilin sadələşməsində İbrahim Şinasi-Namıq Kamal-Ziya Paşa, ictimai-siyasi fikirlərin təbliğində Namıq Kamal-*

*İbrahim Şinasi-Ziya Paşa, ədəbi janrların, xüsusən də poeziyanın bədii-estetik poetikasında Ziya Paşa-Namıq Kamal-İbrahim Şinasi"* [Okay: 2016, s. 56]. Fikrimizcə, bu dövrləşməyə Əhməd Midhat Əfəndinin də daxil edilməsi məqsədəuyğundur. Onun maarifçi romanları və sadə üslubu Tənzimat dövrü nəsrinin formalaşmasında mühüm rol oynamışdır.

II Tənzimat mərhələsi isə (1876-1895) R.M.Əkrəm-Ə.H.Tarhan-S.Səzai üçlüyünün adı ilə qeyd olunur [Okay: 1994, s.133). M.Kaplan ilk nəsli *"sosial və siyasi fikirlər dövrü"*, ikinci nəsli isə *"fərdiyyətçi böyük ehtiraslar və iztirablar"* [Kaplan: 1971, s.9-13] dövrü deyə xarakterizə edir.

Ümumiyyətlə, Tənzimatın ilk mərhələsində, xüsusən də İbrahim Şinasinin fəaliyyəti ilə dildə sadələşmə mücadiləsi başlamışdır. Ədəbi əsərlər mümkün olduğu qədər sadə dildə, xalqa xitabən yazılırdı. Bu dövrdə "ədəbiyyatda sosial faydalılıq" prinsipinə üstünlük verilmiş, sənətin xalq üçün olması ideyası ön plana çəkilmişdir. K.Akyüzün də ifadə etdiyi kimi, Tənzimat hərəkatı bir anlamda "xalqa eniş" idi və bu səbəbdən *"xalqın anlaya biləcəyi bir dil"* [Akyüz: 1995, s.90] üzərində durulması təbii qarşılanırdı. İkinci nəsil yazıçılar isə dil-üslub baxımından Əhməd Midhat Əfəndinin sadə dilini deyil, Namıq Kamalın sənətkaranə üslubunu mənimsəmiş, daha çox "sənət sənət üçündür" prinsipinə üstünlük vermişlər. Bu mərhələdə nəsr müxtəlif ədəbi cərəyanların təsiri altında daha da inkişaf etmişdir. Məsələn, Nabizadə Nazimdə naturalizm, Əbdülhəq Hamiddə romantizm, Rəcaizadə Mahmud Əkrəmdə isə realizm meylləri aydın şəkildə hiss olunur. Təhlillər göstərir ki, Tənzimat dövrü türk romanının həm mövzu dairəsi, həm də bədii-estetik prinsiplər baxımından formalaşdığı əsas mərhələ olmuşdur.

## 2. Sərvəti-fünun dövründə türk romanı

1880-ci ildən sonra Rəcaizadə Mahmud Əkrəm və Əbdülhəqq Hamid Tarhanın yaradıcılığında özünü göstərən ağır, sentimental üslub Sərvəti-fünun mərhələsində (1896-1901) aparıcı mövqeyə sahib olmuşdur. Qısa zaman kəsiyini əhatə etməsinə baxmayaraq, bu dövr türk ədəbiyyatında mühüm bir səhifə açmışdır. Ə.Ə.Toxgözün 17 mart 1891-ci ildə İstanbulda nəşr etməyə başladığı "Sərvəti-fünun" məcmuəsi əvvəlcə müxtəlif fənnlərlə bağlı yazıları dərc edən bir jurnal idi. Lakin Tevfik Fikrətin 1896-cı ildə yazı işləri müdiri təyin olunması ilə dərgi tamamilə məcrasını dəyişərək sənət-ədəbiyyat jurnalına, daha sonra isə ədəbi hərəkatın mərkəzinə çevrildi. Qərbliləşməyi əsas götürən bir qrup gənc şair və yazıçı bu dərgi ətrafında toplanaraq modern türk ədəbiyyatını yaratmağı hədəflədi. Bu hərəkat − Sərvəti-fünun və ya Ədəbiyyatı-cədidə adı ilə tanındı. Onun əsas nümayəndələri poeziyada T.Fikrət, C.Şəhabəddin, H.Siyrət, H.Suad, Ə.Ə.Bolayır, Ə.Rəşid, S.Nazif, S.Nəsib, F.Ə.Ozansoy və C.S.Erozan, nəsr sahəsində X.Z.Uşaqlıgil, M.Rauf, H.C.Yalçın, Ə.Hikmət, S.Ziya və tənqidçi Ə.Şuayb idi.

Bu hərəkatın ortaya çıxdığı dövr II Əbdülhəmidin istibdad illərinin ən burulğanlı mərhələsinə təsadüf edirdi. K.Akyüz bu dövrü belə xarakterizə edir: *"Çağdaşlaşmanın hərarətli tərəfdarları və Tənzimat dövrü yazıçılarının hürriyət düşüncələri ilə bəslənən bu gənclər, əlbəttə ki, dövrün bu ağır havası altında sıxılırdılar. Nə nəşr etsən böyük bir nəzarət, basqı və senzuraya məruz qalırdı. Onların edə biləcəyi bir şey yox idi. İsibdad yaxşıca yerləşmiş, bütün küncbucağı tutmuşdu"* [Akyüz: 1995, s.89]. Tədqiqatçılar bu dövrdə yazıçıların əsərlərindəki fərdiyyətçi, özünə qapalı, melanxolik ruhu əsasən siyasi təzyiqlərlə izah edirdilər. N.Arslan bu dövrün nümayəndələrindən *"siyasi təzyiqlərə görə ictimai-siyasi məsələlərdən əl çəkən yazıçılar*" [Arslan: 2002, s. 561] deyə bəhs edirdilər. M.K. Şan [Şan: 1998, s. 85] isə Sərvəti-fünunçuları Dostoyevski ilə müqayisə edərək, melanxolik əhval-ruhiyyənin yalnız siyasi basqılardan deyil, həm də dövrün intellektual mühitindən qaynaqlandığını vurğulayırdı. Təhlillər göstərir ki, Sərvəti-fünun dövrü həm siyasi basqıların təsiri, həm də Avropa ədəbiyyatına heyranlığın nəticəsi olaraq fərdiyyətçi və estetik yönümlü bir ədəbi mərhələ kimi formalaşmışdır. Böyük bir ədəbi hərəkata çevrilən bu ədəbi topluluq yalnız 1901-ci ilə qədər davam etmişdir. Hüseyn Cahit Yalçının fransız dilindən tərcümə edərək çap etdiyi "*Ədəbiyyat və hüquq"* məqaləsi siyasi xarakter daşıdığı üçün bir müddət jurnalın fəaliyyəti dayandırılmış, yenidən nəşr olunmağa başladığı vaxt isə topluluq demək olar ki, tamamilə dağılmışdır. Qısa bir za-

man kəsiyini əhatə etməsinə baxmayaraq, bu topluluq ədəbiyyatda yeni mərhələ yarada bilmişdir. Bu məktəbin nümayəndələrinin ən nəzərəçarpan cəhətlərdən biri Qərb ədəbiyyatına və mədəniyyətinə heyranlıq idi. Fransız ədəbiyyatının, xüsusilə Balzak, Flober, Stendal və Zolanın yaradıcılığından bəhrələnən Sərvəti-fünunçuların əsərlərində bu təsir aydın hiss olunurdu. Onların yaratdıqları obrazlar Avropa həyat tərzinə üstünlük verir, İstanbul mühitində yaşasalar da, sanki Parisdə yaşayırmış kimi davranırdılar. Xalid Ziya Uşaqlıgil [Uşaklıgil: 1987, s. 489] öz xatirələrində Şərqin zəngin keçmişə sahib olduğunu, lakin gələcəyin Qərbdə olduğunu vurğulayırdı. Dövrün romanları arasında X.Z.Uşaqlıgilin "Səfilə" (1886 təfriqələrlə), "Nəmidə" (1892), "Bir ölünün dəftəri" (1893), "Eşqi-məmnu" ("Yasaq eşq" 1901), "Mavi və siyah" (1896), "Qırıq həyatlar" (1924), M.Raufun "Fərdayı qaram" (1897), "Sentyabr" ("Eylül" 1901), "Bir zambaq" (1910), "Gənc qız qəlbi" (1912), "Bir eşqin tarixi" (1912), "Bənövşə" ("Mənəkşə", 1913), H.C.Yalçının "Nadidə" (1891), "Xəyal içində" (1901), S.Ziyanın "Salon köşələrində" (1912) və digər əsərlər qeyd edilə bilər.

Bu dövrdə qələmə alınan əsərlərdə tənhalıq, xəstəlik, ölüm, intihar, uğursuzluq, küskünlük, cəmiyyətdən uzaqlaşma və özünə qapanma kimi mövzular öz əksini tapırdı. Hətta əsərlərin adlarında belə bu əhval-ruhiyyə özünü göstərirdi: Mavi və siyah, Xəyal içində, Qırıq həyatlar və s. İlk dəfə olaraq, bu dövrdə romanlarda insanın daxili aləmi, ruh dünyası diqqət mərkəzinə alınaraq psixoloji təhlillərə yer verilməyə başlandı.

Dil-üslub baxımından olduqca ağır olan bu romanlar bəlli bir zümrə üçün nəzərdə tutulurdu. Sərvəti-fünunçulara görə sənət toplum üçün deyil, məhz "sənət sənət üçündür" prinsipi ilə yazılmalı idi. Fransız ədəbiyyatına bağlı olan bu yazıçıların xəyal dünyası və ağır üslubu klassik ədəbiyyat tərəfdarlarının (Şeyx Vəsfi, Əhməd Rasim, Əhməd Kamal və s.) etirazlarına səbəb olmuşdur. Onlar Sərvəti-fünunçuları fransız ədəbiyyatına həddindən artıq bağlı qalıb təqlidçi, qeyri-milli və kozmopolit bir ədəbiyyat yaratmaqda günahlandırır, dil və üslub baxımından anlaşılmazlıq yaratdıqlarını iddia edirdilər [Akyüz: 1994, s. 90; Şan: 1998, s. 93].

Etiraf etmək lazımdır ki, bütün bu tənqidlərə baxmayaraq, Sərvəti-fünun romanları həm müsbət, həm də mənfi xüsusiyyətləri ilə türk romançılığının inkişafında mühüm yerə sahib olmuşdur.

Sərvəti-fünunçu yazıçılar arasında Xalid Ziya Uşaqlıgil və Mehmed Raufun yeri xüsusi ilə böyükdür. Əsərlərində psixoloji təhlillərə üstünlük verən hər iki yazıçı türk romanının ən gözəl nümunələrini yaratmışdır. Mehmed Raufun "Sentyabr" (Eylül) əsəri türk ədəbiyyatında ilk psixoloji roman hesab olunur. Xalid Ziya Uşaqlıgilin "Eşqi-məmnu" və "Mavi və siyah" əsərləri də türk romanında böyük əks-səda doğurmuşdur. S.Kantarcıoğlu [Kantarcıoğlu: 2004, s. 34] Xalid Ziyanın "Mai və siyah" əsərini ilk modern roman kimi xarakterizə etmişdir.

Təhlillər göstərir ki, Tənzimat dövrünün romanları ilə müqayisədə Sərvəti-fünun dövrü romanları dərin dramatizmi, psixoloji təhlilləri ilə diqqəti cəlb edir, forma baxımından isə modern romanın tələblərinə tamamilə cavab verirdi.

### 3. Fəcri-ati dövründə romanın inkişafı

Mənbələrdə [Kocatürk: 1964, s. 730] qeyd olunur ki, Sərvəti-fünun hərəkatı 1908-ci ilə qədər öz təsirini davam etdirmiş, daha sonra isə bir qrup gənc "Fəcri-ati" (Gələcəyin şəfəqi) (1909-1912) adı altında yeni bir ədəbi topluluq yaratmışdır. 25 mart 1909-cu ildə "Sərvəti-fünun" jurnalında F.Əlinin rəhbərliyi ilə Fəcri-at əncümənin qurulduğu haqqında xəbər dərc edilmişdir. Bu bəyannamədə Fəcri-atçılərin sənət haqqında görüşləri də öz əksini tapmışdır. Onlara görə "sənət şəxsi və möhtərəm" idi. Sərvətifünunçular kimi, Fəcri-atçılər də sənəti siyasi çəkişmələrdən uzaq tutmağa çalışsalar da, buna müvəffəq olmamışlar. Əhməd Səmim və Əhməd Süxənin Hilal qəzetində 31 mart hadisəsini lənətləyən yazılarına görə mətbəə üsyançılar tərəfindən basılmış, bir müddət sonra isə Əhməd Səmim faciəli şəkildə öldürülmüşdür. "Sərvəti-fünun" jurnalının sonrakı nömrələrində ona ağılar yazılmış, İttihad və Tərəqqiçilərə qarşı çıxışlar dərc olunmuşdur [Şen: 2009, s.1343-1348]. Bu hadisə sonralar Y.K.Karaosmanoğlunun "Hökm gecəsi" romanında da öz əksini tapmışdır.

Ədəbi topluluğun əsas nümayəndələri Ə.Haşim, H.Sübhi, C.Sahir, X.Qaray, Ş.Süleyman, F.Köprülü və başqaları idi. Fəcri-atçilərin əsərləri dil-üslub baxımından olduqca ağır,

ərəb-fars tərkibli və süslü idi. Nəsr sahəsində, xüsusən də roman janrında böyük uğur əldə edilməmiş, yalnız bir neçə nümunə ortaya çıxmışdır. Bunlar arasında İ.M.Devrimin "Təzad" (1912), C.S.Alyanaqoğlunun "Siyah gözlər" (1912), "İnhizam" (yarımçıq qalıb, 1911) və "Qadın ruhu" (yarımçıq, 1914) romanları qeyd edilə bilər. Qeyd etmək lazımdır ki, Yakup Kadri Karaosmanoğlu və Xalid Qaray kimi qüdrətli yazıçılar ilkin olaraq bu topluluğa qoşulsalar da, əsas məhsuldarlıqlarını Cümhuriyyət və Milli ədəbiyyat dövrlərində göstərmişlər.

Polemikalar, daxili mübahisələr və üzvlərin bir-bir ayrılması bu hərəkatın dağılmasını sürətləndirdi. Xüsusilə Ömər Seyfəddin və Ziya Gökalpın nəşr etdikləri "Gənc qələmlər" dərgisi Fəcri-atnin sonunu gətirdi. 1912-ci ilin sonuna çatmadan topluluq dağıldı, üzvlərin çoxu isə Milli ədəbiyyat hərəkatına qoşuldu. Bir sözlə, milli ədəbiyyat hərəkatının başlamasıyla bu dönəm başa çatdı. Ədəbi baxımdan Fəcri-at dövrü Ədəbiyyat-ı Cədidə ilə Milli ədəbiyyat arasında bir körpü rolunu oynadı.

**4. Milli ədəbiyyat dövründə roman**

Türkiyə ədəbiyyatında Milli ədəbiyyat mərhələsi 1911–1923-cü illərdə formalaşmışdır. Bu illər Osmanlı dövlətinin parçalanma dövrünə təsadüf edir: Trablisqarb müharibəsi (1911), Balkan savaşları (1912-1913), I Dünya müharibəsi (1914–1918) və milli mücadilə illəri (1919-1923) yeni bir dövlətin təməlini qoymuş, ədəbiyyatda isə milli kimlik məsələsini ön plana çıxarmışdır.

Hərəkatın rəsmi başlanğıcı milliyyətçiliyi təbliğ edən "Gənc qələmlər" jurnalı ilə bağlıdır. 1910-1912-ci illərdə Selanikdə nəşr olunan bu məcmuənin əsas simaları Əli Canib, Ömər Seyfəddin və Ziya Göyalp idi. Onların "Yeni lisan" hərəkatı ərəb-fars tərkibli ağır dili kənara qoyaraq, xalqın başa düşəcəyi sadə türk dilini ədəbiyyata gətirməyi hədəfləyirdi. K.Akyüzün sözləri ilə desək, bu, *"təqlid səhifəsindən çıxaraq, yaratma səhifəsinə keçmək"* [Akyüz: 1995, s. 168] idi. Milli ədəbiyyat ideologiyasının əsas dayaqları türkçülük və islamçılıq idi. Ziya Göyalp "Türkləşmək, islamlaşmaq, müasirləşmək" (1918) və "Türkçülüyün əsasları" (1923) əsərlərində milli ideologiyanın əsaslarını qoymuş, "Turan", "Altun dastan", "Qızılalma" kimi mənzumələrində turançılıq ideyalarını simvolik şəkildə ifadə etmişdir. Mehmet Akif Ərsoyun öncüllüyü ilə formalaşan islamçılıq isə "Sırati-Müstəqim" və "Səbilürrəşad" dərgiləri ətrafında cəmlənmişdir.

"Gənc qələmlər"in ədəbiyyat və dil haqqında görüşləri Sərvəti-fünun və Fəcri-atiçilər tərəfindən xoş qarşılanmır, polemikalara səbəb olurdu. M.Rauf, H.Cahid, X.Z.Uşaqlıgil, C.Şəhabəddin, S.Nazif, Ə.Kamal, Y.Q.Qaraosmanoğlu, F.Köprülü və s. şair və yazıçıların etirazdolu məqalələrində əsasən *"yeni lisanın ədəbiyyatın deyil, yalnız elmin dili ola biləcəyi"*, sənət əsərlərinin millətlərarası olma səbəbiylə *"ədəbiyyatın da milli ola bilməyəcəyi" və "Gənc qələmlər"də çıxan milli ədəbiyyat anlayışının "irqi bir xarakter daşıdığı*" [Akyüz: 1995, s. 168] kimi məsələlər vurğulanırdı. Təxminən bir il sürən bu çəkişmələrdən sonra H.Sübhi, C.Sahir, F.Köprülü, R.X.Qaray və s. kimi şair və yazıçılar yeni lisan hərəkatını qəbul etdiklərini bəyan edib, onlara qoşuldular.

Milli Ədəbiyyat dövrünün yazıçılarını mənsub olduqları ədəbi-estetik mövqelərə görə müxtəlif qruplara ayırmaq mümkündür. Onların bir qismini hərəkatın əsas nümayəndələri olan Ömər Seyfəddin, Xalidə Ədib Adıvar və Rəşad Nuri Güntəkin təşkil edirdisə, digər qismini əvvəldən milli ideyalara bağlı olan Əhməd Hikmət Müftüoğlu, Yaqub Qədri və Rəfiq Xalid kimi sənətkarlar təmsil edirdi. Bununla yanaşı, Hüseyn Ziya və Məhməd Rauf kimi əvvəlki ədəbi məktəblərin davamçıları, eləcə də Hüseyn Rəhmi və Səbahəddin Əli kimi müstəqil yaradıcılıq yolu seçən yazıçılar da bu dövrün ədəbi mənzərəsində mühüm yer tutmuşlar

Sözü gedən dövrdə poeziyada olduğu kimi, roman janrı da milli ideologiyanın əsas daşıyıcısına çevrilmişdir. X.Ə.Adıvarın "Xəndan", "Yeni Turan", "Atəşdən köynək", Y.Q.Qaraosmanoğlunun "Kirəlik köşk" ("Kiralık konak"), "Nur baba", R.N.Güntəkinin "Çalıquşu", R.X.Karayın "İstanbulun iç üzü", Ə.H.Müftüoğlunun "Könül xanım", M.F.Təkin "Aydəmir" və digər əsərlər milli ədəbiyyatın aparıcı nümunələri olmuşdur. Bu romanlarda milli şüur, vətənpərvərlik, sadə dil və psixoloji təhlillər ön plana çıxırdı.

Xüsusilə qeyd edək ki, bu dövr romanlarda türkçü-turançı ideyaların əksi mühüm yer tutur. X.Ə.Adıvarın "Yeni Turan" (1912) əsəri ilk

ideoloji-siyasi roman hesab edilir. Milli kimlik və mədəni birlik ideyasını irəli sürən romanın əsas xəttini Türkçülük şüuru təşkil edir. Əsərin baş qəhrəmanı Oğuz türk millətinin tərəqqisini əsas məqsəd hesab edərək, bu idealogiyanı təbliğ edir. Romanda milli birlik və vətən sevgisi ictimai-siyasi hadisələrin fonunda təqdim olunur. Müfidə Fərid Təkin "Aydəmir" romanında da turançılıq ideyası dolğun şəkildə öz əksini tapır. Romanın əsas qəhrəmanı Aydəmir həyatını türk xalqlarının birliyi uğrunda mübarizəyə həsr etmiş idealist türk ziyalısının tipik obrazıdır. O, şəxsi hisslərini, sevgisini və şəxsi mənafeyini türk millətinin gələcəyi naminə ikinci plana keçirərək həyatının əsas məqsədini türk xalqlarının birliyinə xidmət etməkdə görür. Aydəmir Türküstanın müxtəlif bölgələrini gəzərək, türk ocaqları qurur, türk xalqlarını milli birliyə çağırır. Onun fəaliyyətinin əsas qayəsini azadlıq, birlik və milli dirçəliş ideyaları təşkil edir. Turan idealını bütün türkləri birləşdirəcək müqəddəs amal hesab edən Aydəmir bütün gücüylə əsarət altında yaşayan türk xalqlarının xilası üçün mübarizə aparır. Romanda turançılıq yalnız siyasi fikir kimi deyil, həm də mənəvi missiya kimi təqdim edilir. Müəllif Aydəmir obrazı vasitəsilə türk dünyasının ortaq tarix, dil və mədəniyyət əsasında birləşə biləcəyi inamını ifadə edir. Əhməd Hikmət Müftüoğlunun "Könül" xanım romanı da bu baxımdan maraq kəsb edir. Əsərdə Orxun-Yenisey abidələri milli kimlik probleminin açarı kimi təqdim olunur, qəhrəmanların qədim türk abidələri qarşısında duyduğu həyəcan, türkün öz köklərinə dönüş arzusunu simvolizə edir. Müftüoğlu bu romanla oxucuya "özünü tanı, kökünə dön" çağırışı edərək, türk birliyi idealını, milli kimlik axtarışını özünəməxsus şəkildə əks etdirir. Qeyd edək ki, milli ədəbiyyat dövründə başlayan bu tendensiya, yəni romanlarda türkçülük-turançılıq ideyasının işlənməsi, sonrakı mərhələlərdə də davam etmişdir. Xüsusilə, Hüseyn Nihal Atsız bu xətti daha sərt və ideoloji çalarlarla irəli aparmışdır. Onun "Bozqurdların ölümü" və "Bozqurdlar dirilir" romanlarında Turan idealı tarixi qəhrəmanlıqla birləşdirilir, türk birliyi uğrunda mübarizə milli varlığın əsas şərti kimi təqdim olunur. Atsızın qəhrəmanları yalnız siyasi deyil, həm də mənəvi gücün daşıyıcılarıdır. Onlar türkün öz köklərinə dönməsini, tarixi şüurun dirçəlişini simvolizə edirlər. Ümumiyyətlə, H.N.Atsız yaradıcılığında türkçülük tarixi yaddaş və milli kimlik müstəvisində, türk millətinin tarixi və mənəvi bütövlüyünü ifadə edən bir ideal kimi təqdim edilir. Bundan başqa, Peyami Səfanın "Atilla", Abdullah Ziya Kozanoğlunun "Barışçı alp", Cengiz Dağcının "Gənc Timurçin", Turxan Tanın "Çingiz xan", Şövkət Sürəyya Aydəmirin "Suyu arayan adam" kimi romanları da türkçü-turançı görüşləri əks etdirməsi baxımından əhəmiyyət kəsb edir. Ümumiyyətlə, türk romanında bu mövzu müxtəlif dövrlərdə romantik, idealist və realist çalarlarla işlənərək milli ədəbiyyatın əsas ideoloji sütunlarından birinə çevrilmişdir.

**5. Cümhuriyyət dövründə romanın inkişaf istiqamətləri**

Milli ədəbiyyat mərhələsinin ideoloji və estetik xətti Cümhuriyyət dövründə daha da genişlənərək yeni bir mərhələyə qədəm qoydu. 1923-cü ildə Türkiyə Cümhuriyyətinin qurulması ilə ədəbiyyat da milli kimlik, dil və mədəniyyət məsələlərini daha sistemli şəkildə gündəmə gətirdi.

Dil islahatları bu dövrdə roman üslubuna da təsir göstərdi. "Yeni lisan" hərəkatının ideyaları Atatürkün dil siyasəti ilə birləşərək, romanların daha sadə, xalqın gündəlik danışıq dilinə yaxın bir üslubda yazılmasına şərait yaratdı. Bu, həm oxucu kütləsinin genişlənməsinə, həm də ədəbiyyatın milli kimlik formalaşdırma gücünün artmasına səbəb oldu.

Cümhuriyyət dövrü romanı mövzu baxımından da zənginləşdi: milli mücadilə, kənd həyatı, modernləşmə, qadın azadlığı, psixoloji təhlillər və sosial problemlər bu romanların əsas istiqamətlərini təşkil edirdi. Beləliklə, Cümhuriyyət dövrü romanı milli ədəbiyyatın davamı olmaqla yanaşı, yeni dövlətin ideoloji və mədəni əsaslarını da bədii şəkildə ifadə etdi. Bu dövrdə roman janrı həm milli şüurun möhkəmlənməsi, həm də cəmiyyətin sosial-siyasi problemlərinin bədii ifadəsi baxımından önəmli rol oynadı. Y.Q.Qaraosmanoğlu "Yaban" (1932) romanında milli mücadilə illərində kənd və şəhər, oxumamış, avam kəndli və yüksək təhsilli ziyalı arasındakı uçurumu göstərərək, bu qopuqluğu tənqid etdi. R.N.Güntəkin isə "Çalıquşu" (1922) romanında Fəridə obrazı ilə bu stre-

otopləri qıraraq, maarifçilik ideyalarını ön plana çıxardı.

Cümhuriyyətin ilk illərini əhatə edən 1920-1940-cı illərdə Y.Q.Qaraosmanoğlu, P.Səfa, R.N.Güntəkin, X.Ə.Adıvar, S.Ayverdi, N.F.Qısakürək, S.Əli, S.Dərviş və s. kimi böyük bir nəsil yetişmiş, müxtəlif mövzulu romanlar qələmə alınmışdır. Fəthi Naci 1950-ci illərə qədərki türk romanının əsasən iki istiqamətdə inkişaf etdiyini yazır. Birinciyə, ictimai problemləri əks etdirən romanları, ikinciyə, isə fərdin daxili dünyasına yönələn dramatik romanları aid edir [Naci: 1981, s.32]. Ə.Yalçın isə dönəmin romanlarını ideya-məzmun baxımından daha geniş təsnif edir: ictimai-siyasi və sosial məsələləri əks etdirən romanlar, Anadolu romanları, tarixi romanlar və sevgi romanları [Yalcın: 2012, s.26-27]. Bu təsnifat Cümhuriyyətin ilk illərində roman janrının həm milli ideologiyanın daşıyıcısı, həm də fərdi duyğuların ifadəçisi olduğunu ortaya qoyur. Professorun bu təspiti ilə razılaşaraq, psixoloji-fəlsəfi mövzulu və dini-təsəvvüfi əsərləri də bu bölgüyə əlavə etməyi məqsədəuyğun hesab edirik. Təhlillər göstərir ki, sözügedən dövrdə dərin psixoloji-fəlsəfi mövzular da öz əksini tapırdı. Xüsusilə P.Səfa, Ə.H.Tanpınar (psixoloji-fəlsəfi-sosyoloji) və R.N.Güntəkinin (psixoloji-lirik üslubda) yaradıcılığında bu istiqamət aydın şəkildə özünü göstərirdi. Təsadüfi deyil ki, türk psixoloji romanı 1920-1940-cı illərdə, xüsusən də P.Səfanın əsərlərində ən gözəl nümunələrini verdi.

Yeni qurulan Cümhuriyyətdə M.K.Atatürkün əsas prinsiplərindən biri dinin dövlətdən ayrılığı − yəni laiklik idi. Lakin bu prinsip ictimai-siyasi və mədəni mühitdə ciddi münaqişələr doğurdu. Bu polemikalar ədəbi əsərlərdə də öz əksini tapmağa başladı. Y.Q.Qaraosmanoğlunun "Nur baba", R.N.Güntəkinin "Yaşıl gecə", N.Banoğlunun "Bektaşi qız" romanları bu baxımdan diqqəti cəlb edir. Bu əsərlərdə Nur babaların timsalında, din pərdəsinə bürünmüş, "şeyxlərin" iç üzü, dağılan, milli kimliyindən uzaqlaşaraq yeni axtarışlara başlayan İstanbul kübar təbəqəsinin tükənişi, "müasirləşərək" sərbəstlik qazanmağa başlayan qadın-kişi münasibətləri, şəxsi mənfəətlər uğrunda mili-mənəvi, dini dəyərlərin heçə sayılması, bir sözlə köhnə-yeni konflikti, inanc sisteminin sarsılması kimi mühüm məsələlər öz bədii ifadəsini tapırdı. Sözü gedən dövrdə dini tənqidi romanlarla yanaşı, sufi-fəlsəfi ideyaların əks olunduğu əsərlər də qələmə alınırdı. P.Səfanın, X.N.Zorlutunanın, Ə.H.Tanpınarın, S.Ərolun, S.Ayverdinin və N.F.Kısakürəkin yaradıcılığında dini-mistik təmayüllər öz əksini tapırdı. Sonrakı dövrlərdə, xüsusən də 1970-ci illərdən başlayaraq türk romanlarında dini-fəlsəfi mövzulara maraq daha da artmışdır. Bu yazıçılardan, İ.Həkimoğlu, Ş.Y.Şənlər, C.Zərifoğlu, R.Özdənörən, Ə.G.Yıldız, Y.Bahadıroğlu, Y.Boyunağa və s. adlarını çəkə bilərik.

Cümhuriyyətin ilk illərində diqqəti cəlb edən istiqamətlərdən biri də populyar (kütləvi) romançılıq idi. Əsasən ailə-məişət mövzularına həsr olunan bu əsərlərdə sevgi hekayətləri ön planda idi. Qısa bir zaman kəsiyində yüzlərlə bu tipli romanlar çap olunmağa başladı. Dövrün romanlarının kəmiyyətində müşahidə olunan yüksəliş, istər-istəməz keyfiyyətə də öz təsirini göstərdi. Populyar ədəbiyyat nümunələri oxucunun marağını cəlb etmək üçün geniş kütləyə xitab edir, qəzetlərdə təfriqə şəklində dərc olunaraq oxucuya daha tez çatdırılırdı. Ş.Aktaş bu yazıçıların romanı bir dolanışıq vasitəsi kimi gördüklərini, onlara yaxşı qazanc gətirdiyini, buna görə də qəzet təfriqaçılığına meyl etdiklərini qeyd edir [Aktaş: 1998, s. 679]. Ə.Oqtay isə bu əsərlərin sadəcə vaxt öldürmək üçün yazılmadığını, xüsusən də əlifba islahatından sonra oxuyub-yazmağa maraq oyatmaqda və yeni rejimin prinsiplərini aşılamaqda mühüm rol oynadığını vurğulayır [Oktay: 1993, s. 125]. A.D.Yıldız da, ədəbi dəyərindən asılı olmayaraq, hər bir romanın ədəbiyyat məhsulu olmasının inkaredilməz fakt olduğunu bildirir [Yıldız: 2009, s. 13]. Fikrimizcə, populyar romanları zəif əsər damğası ilə bir kənara atmaq düzgün deyil. Çünki onların arasında bədii-estetik dəyəri yüksək nümunələr də az deyildi. Populyar ədəbiyyatı toplumsal harmoniya kimi dəyərləndirən C.Qaveltiyə görə, bu əsərlər bir növ "formul" və ya "resept" mahiyyəti daşıyır, oxucuda oxuma vərdişi yaradaraq ədəbi zövqü formalaşdırırdı [Gavelti: 1976, s.20]. Bu əsərlərdən, G.S.Aygünün "Yaban gülü" (1920), "Nedrət" (1922), "Hüsran" (1928), "Hüsran gecəsi" (1937), "Nəcla" (1941), "Mazinin səsi" (1944), Kərimə Nadir Əzraqın "Yaşıl işıqlar" (1937), "Hıçqırıq" (1938), "Günah məndədirmi?"

(1939), "Sevən nə etməz" (1940), "Qəlb oğrusu" ("Gönül Hırsızı") (1941), "Sonbahar" (1943), "Gəlinlik qız" (1943), P.Cəlalın "Sönən alov" (1938), "Ana-qız" (1941), "Qızıl vaz" (1941), "Mən vurmadım" (1941), Ə.M.Qaraqurdun "Dağları gözləyən qız" (1934), "Ölənə qədər" (1937), "Ömrümün tək gecəsi" (1949), M.T.Bərkandın "Sən və mən" (1933), "Eşq fırtınası" (1935), "Bahar çiçəyi" (1935) və s. adlarını qeyd edə bilərik. Bu romanların böyük əksəriyyəti sonradan ssenariləşdirilərək filmə alınmışdır. Məsələn, Kərimə Nadirin "Sevən nə etməz" (rejissor Ş. Kamil, 1947; O.Aksoy, 1970), "Hıçqırıq" (rejissor A.Yılmaz, 1953; O.Aksoy, 1965), "Son bəstə" (rejissor A.Alyanaq, 1955), "Funda" (rejissor N.Hançer, 1958; M.Dinler, 1968), "Zambaqlar açarkən" (rejissor N.Saydam, 1973) və G.S.Aygünün "Ölmüş qadının evraki-mətrukəsi" kimi əsərlər ekranlaşdırılmışdır.

Sözü gedən dövrdə sevgi macərasına həsr olunan populyar sevgi romanlarıyla yanaşı, tarixi romanlara da üstünlük verilmişdir. Onu da qeyd edək ki, türkiyəli tədqiqatçıların əksəriyyəti [Türkeş: 2001, s. 441-443] tarixi romanları populyar ədəbiyyatın bir qolu olaraq araşdırır. Bildiyimiz kimi, türk oxucusu hələ Tənzimat dövründə N.Kamalın "Cəzmi" əsəri ilə tarixi romanla tanış olmuşdur. Sonrakı mərhələlərdə (Ə.Midhat Əfəndinin "Yeniçərilər", "Süleyman Musli" və s.) bu janra müraciət olunsa da, sayca azlıq təşkil edirdi. Cümhuriyyətin ilk illərində isə tarixi romanların kəmiyyət və keyfiyyət baxımından yüksəldiyini görürük. Bu dövrdə, T.Tanın "Könüldən-könülə" (1931), "Teymurləng" (1935), "Xürrəm Sultan" (1937), "Viyanaya dönüş" (1937), "Çingiz xan" (1939), "Safiya Sultan" (1939), P.Səfanın "Atilla" (1931), İ.F.Sərtellinin "Asiyada bir günəş doğur" (1933), "Şumer qızı" (1933), "Tanrının oğlu" (1939), N.Nazif Təpədənlioğlunun "Qara Davud" (1928), H.N.Atsızın "Bozqurdların ölümü" (1946), "Bozqurdlar dirilir" (1949), A.Z.Kozanoğlunun "Qızıl tuğ" (1923), "Atlı xan" (1924), "Kozanoğlu qolsuz qəhrəman" (1930) kimi romanlar qələmə alınmışdır. Ə.Yalçın [Yalcın: 2012, s.277] 1920-1946-cı illər arasında yüz tarixi roman yazıldığını, bunların əksəriyyətinin isə Osmanlı tarixindən bəhs etdiyini bildirir.

Bu mərhələdə diqqəti cəlb edən istiqamətlərdən biri də, hələ milli ədəbiyyat dövründə ədəbi hərəkata çevrilən "Məmləkət ədəbiyyatı" idi. R.N.Güntəkin, X.Qaray, R.E.Aygən, S.Ərtəm, S.Əli və s. kimi yazıçıların yaradıcıllığında Anadolu (kənd) mövzusu öz əksini tapırdı. Xüsusilə, R.X.Qarayın "Məmləkət hekayələri" türk hekayəçiliyində dönüş nöqtəsi hesab olunurdu [Kabaklı: 2008, c.3., s.779]. Beləliklə, ədəbiyyatda toplumsal-gerçəkçilik istiqaməti inkişaf etməyə başladı. 1950-ci illərdən sonra bu xətt daha da gücləndi. Anadolu romanlarında ağa-kəndli, ağa-məmur münasibətlərindəki konfliktlər əsərlərin leytmotivinə çevrildi. S.Qocagöz, T.Apaydın, M.Başaran, K.Bilbaşar, O.Kamal, K.Tahir, F.Baysal və s. yazıçılar məmləkət ədəbiyyatının ən gözəl nümunələrini verdilər.

1950-1960-cı illər Türkiyənin ictimai-siyasi və ədəbi-mədəni həyatında dönüş nöqtəsi oldu. Bu dövrdə tək partiyalı sistemdən çoxpartiyalı siyasi həyata keçid baş verdi. Çoxpartiyalılıq isə söz azadlığını genişləndirdi, cəmiyyətdə sağçılar və solçular arasında gərgin mübahisələr və konfliktlər yaşandı. Bu siyasi mühit ədəbiyyata da birbaşa təsir göstərdi. Romanlarda artıq yalnız milli kimlik və psixoloji mövzular deyil, həm də ictimai-siyasi qarşıdurmalar, ideoloji mübahisələr, azadlıq və demokratiya məsələləri işlənməyə başladı. Yazıçılar yeni dövrün gərginliklərini bədii mətndə əks etdirərək, həm cəmiyyətin parçalanmış mənzərəsini, həm də fərdin bu mühitdəki mövqeyini təsvir etdilər. Bu mərhələdə yazılan romanlarda sevgi motivi, tarixi mövzular və kənd nəsrinin inkişafı ilə yanaşı, modernizm qarşısında tənhalaşan fərdin − xüsusən də türk ziyalısının daxili dünyası diqqət mərkəzinə çəkildi. Yeni siyasi mühit, çoxpartiyalılıqdan doğan söz azadlığı və ideoloji qarşıdurmalar fərdin psixoloji vəziyyətini daha da mürəkkəbləşdirdi. Məsələn, H.Ə.Bənərin "Əcəmilər" (1952) romanında Türkiyənin çoxpartiyalılığa keçid dövründə əzilən, təzyiq altında qalan türk ziyalısının daxili böhranı təsvir olunur. Bu əsərdə ziyalının cəmiyyətlə münasibətindəki gərginlik, onun özünü ifadə etməkdə qarşılaşdığı maneələr bədii şəkildə işlənmişdir.

Tədqiqatçı T.Ertangil bu böhranın başlıca səbəblərini adət-ənənələr, əxlaq normaları, cəmiyyətdəki mövcud şərtlər, önyargılar və onla-

rın doğurduğu təzyiqlərlə izah edir [Ertangil T. "Erhan Benerin Acemiler adlı romanı üzerine" http://www.ertangil.com/2013/08/erhan-benerin-acemiler-adl-roman-uzerine.html].

Türk romanında ziyalının daxili böhranı, cəmiyyətə yadlaşması və modern dövrün gətirdiyi tənhalıq mövzusu uzun illər boyu öz aktuallığını qorudu. Bu mövzunu parlaq şəkildə ifadə edən əsərlər arasında Ə. Bənərin "Yalnızlar", Attila İlhanın "Sokakdakı adam", "Zəncilər bir-birinə bənzəməz", Yusif Atılqanın "Aylak adam", "Anayurd oteli", "Canistan" və Oğuz Atayın "Tutunamayanlar" romanı xüsusi yer tutur.

1950-1960-cı illərdə başlanmış bu xətt, 1970-ci illərdə yeni estetik güc qazanaraq roman janrında tamamilə fərqli bir mərhələ açdı. Bu mərhələ yeni bir nəfəs, yeni bir üslubun başlanğıcı oldu. Bu dövrdə Oğuz Atay və Yusif Atılqan kimi yazıçılar roman janrına tamamilə fərqli bir baxış gətirdilər. Onların əsərlərində modernist üslub, psixoloji dərinlik və fərdin cəmiyyət qarşısında tənhalaşması ən güclü şəkildə ifadə olundu. Oğuz Atayın "Tutunamayanlar"ı və Yusif Atılqanın "Aylak adam"ı türk romanında yalnız yeni mövzular açmadı, həm də yeni bir estetik dünyagörüş yaratdı. Bu əsərlərdə qəhrəmanlar cəmiyyətin sərt qaydaları ilə barışmayan, öz daxili aləminin labirintlərində dolaşan, tənhalığı və yadlaşmanı yaşayan insanlardır. Onların daxili monoloqları, parçalanmış düşüncə axınları və həyatla mübarizələri türk romanını klassik realizm çərçivəsindən çıxararaq modernist estetikaya gətirdi.

1970-1980-ci illərin türk romanında diqqəti cəlb edən istiqamətlərdən biri də qürbət və köç motivləri idi. Bu dövrdə yazılan əsərlərdə, xüsusilə 1960-cı illərdən sonra işləmək üçün Almaniyaya axın edən türklərin həyat tərzi, qarşılaşdıqları çətinliklər və psixoloji vəziyyətləri bədii şəkildə əks olunurdu. B.Yıldızın "Türklər Almaniyada" (1966), Ə.Ağaoğlunun "Fikrimin incə gülü" (1976), H.Qayıxanın "Qürbət ölümləri" (1981), F.Savaşçının "Almanlar bizi sevmədi" (1986), "Kölndə bir qız" (1986) və s. kimi əsərlərdə 1960-cı illərdən sonra Almaniyaya axın edən türklərin vəziyyəti, həyatı müxtəlif yönləri ilə əks olunmuşdur.

1980-ci illər türk romanının inkişafında yeni bir səhifənin başlanğıcı oldu. Bu dövrün görkəmli yazıçıları arasında Leyla Ərbil, Nazlı Əray, Orhan Pamuk, Buket Uzuner, Murathan Munqan, Ə.Ağaoğlu, Latifə Təkin, Elif Şəfəq, Mustafa Miyasoğlu, İskəndər Pala və başqalarının adlarını qeyd etmək olar.

Bu mərhələdə baş verən ictimai-siyasi hadisələr − xüsusən 12 sentyabr 1980 hərbi çevrilişi − ədəbiyyata da güclü təsir göstərdi. Tədqiqatçı Berna Moran yazır ki [Moran: 2004, 3. c., 49], bu müdaxilə yalnız sağ və sol qrupların fəaliyyətini dayandırmaq məqsədi daşımırdı, həm də cəmiyyətə yeni dəyərlər aşılayaraq köhnə ideoloji çərçivələri tamamilə təmizləməyi hədəfləyirdi.

Beləliklə, milli ədəbiyyat dövründən bəri davam edən kənd mövzusu və sosial problemləri əks etdirən romanlar öz yerini fərdi mövzulara verdi. Moranın ifadəsi ilə desək, 1980-ci illər nəsli əvvəlki dövrlərdə mütəmadi işlənən "ədalətsizlik", "istismar" kimi mövzuların artıq "yersizliyini" anlayaraq, fərdin daxili dünyasına yönəldi [Moran: 2004, 3. c., s. 51]. Bu dövrdə ilk postmodern romanlar yazılmağa başlandı. 1970-ci illərdə O.Atayın "Tutunamayanlar" və "Təhlükəli oyunlar" romanlarında görülən postmodern axım, 1980-ci illərdə Y.Atılqan ("Anayurd oteli"), P.Kür ("Yarın, yarın", "Bir cinayət romanı"), Ə.Ağaoğlu ("Bir düyün gecəsi"), B.Qarasu ("Klavuz" ("Bələdçi")), N.Əray ("Arzu sapağında enəcək var" (sapak-yol ayrıcı), L.Təkin ("Sevgili arsız ölüm"), O.Pamuk ("Qara kitab", "Yeni həyat") postmodern romanın ən gözəl nümunələrini yaratdılar.

Sözügedən dövrdə tarixi mövzular xüsusi önəm qazanmışdır. Yazıçılar Osmanlının şanlı keçmişinə, milli mübarizə illərinə, Cümhuriyyət dövründə baş verən hadisələrə və sürgün həyatının acı lövhələrinə müraciət edərək, tarixi yaddaşı roman janrında əks etdirmişlər. Bu istiqamətdə S.Qocagözün "Əski torpaq" (1989), A.Qutlunun "Xoşca qal, ümid" (1987), S.Çokumun "Hilal görünəndə" (1984), Ə.İşınsunun "Canbaz" (1982) və "Qaf dağının arxasında" (1988) əsərləri diqqətəlayiq nümunələrdir. Bu romanlarda tarixi hadisələr yalnız keçmişin təsviri kimi deyil, həm də milli kimliyin bədii ifadəsi kimi işlənmişdir.

Bu dövrdə tarixi mövzulara müraciət edən yazıçılar sırasında Fırat Sunelin "Salxım söyüdlərin kölgəsində" romanı da xüsusi yer tutur.

Əsərdə Axıska türklərinin sürgün həyatı bütün faciəvi çalarları ilə təsvir olunur.

Müasir türk romanında Azərbaycanla bağlı mövzular da öz əksini tapmışdır. Xüsusilə Qarabağ problemi, vətən sevgisi, milli mübarizə və qəhrəmanlıq kimi mövzular müxtəlif əsərlərdə bədii şəkildə işlənmişdir. Osman Qazi Kandemirin "Qərənfil", Yurdsevən Şənin milli qəhrəman Mübariz İbrahimova həsr etdiyi "Bir çılğın türk Mübariz" və "Fərizə" romanları bunun bariz nümunələrindəndir. Bu əsərlərdə tarixi hadisələr fonunda milli yaddaş, vətənpərvərlik və fədakarlıq ideyaları ön plana çıxarılmışdır.

Türk romanlarında diqqəti cəlb edən mövzulardan biri də sufi-fəlsəfi ideyaların öz əksini tapması idi. Xüsusən, 2000-ci illərdən etibarən türk romanında neosufizm özünü göstərməyə başladı. İ.Pala ("Babildə ölüm, İstanbulda eşq" 2003, "Od" 2011), Ə.Ümid ("Babi-əsrar" ("Sirr qapısı", 2008), Ə.Şəfəq ("Eşq" 2009), S.Yağmur ("Eşqin göz yaşları Hz.Mövlanə" 2011, "Eşqin göz yaşları Kimya Xatun" 2011, "Eşqin göz yaşları Təbrizli Şəms" 2012), M.Qaya ("Vüslatı-viranə Şəms Təbrizi romanı" 2012), A.Abaq ("Eşqi söyləmək" 2013) kimi yazıçıların əsərlərində sufi-fəlsəfi ideyalar və ilahi eşq motivi geniş şəkildə işlənmişdir. Lakin bu mərhələdə təsəvvüf klassik ədəbiyyatda olduğu kimi məqsəd deyil, daha çox bədii vasitə rolunu oynayırdı. Sufizm yeni məna kəsb edərək fərdin daxili dünyasını, mənəvi axtarışlarını ifadə etməyə xidmət edirdi.

Ümumiyyətlə, son dövr türk romanı janr baxımından çoxşaxəli inkişaf göstərmişdir. Postmodern, modernist, fantastik, utopik, macəra, qotik, detektiv, tarixi və digər üslublarda yazılan romanlar oxucunun marağını artırmış, bu maraq isə həm keyfiyyətə, həm də kəmiyyətə təsir etmişdir. Statistika da bunu təsdiqləyir: 2000-ci ildə 132, 2001-ci ildə 139, 2002-ci ildə 207, 2003-cü ildə 214, 2004-cü ildə 303, 2005-ci ildə 331, 2006-cı ildə isə 364 roman çap olunmuşdur [Gündüz: 2016, s. 538].

## Nəticə / *Conclusion*

Təhlillər göstərir ki, türk romanı XIX əsrin ikinci yarısında Qərb ədəbiyyatının təsiri ilə formalaşmağa başlamış və keçdiyi müxtəlif inkişaf mərhələləri nəticəsində türk ədəbiyyatının aparıcı janrlarından birinə çevrilmişdir. Tənzimat dövründə əsasən maarifçilik və ictimai fayda prinsipləri üzərində qurulan roman janrı sonrakı mərhələlərdə estetik baxımdan zənginləşmiş, fərdin daxili dünyasının, psixoloji yaşantılarının və cəmiyyətin mürəkkəb problemlərinin ifadə vasitəsinə çevrilmişdir. Sərvəti-fünun, Milli Ədəbiyyat və Cümhuriyyət dövrlərində fəaliyyət göstərən yazıçılar romanın mövzu dairəsini genişləndirmiş, onun bədii imkanlarını daha da inkişaf etdirmişlər.

Türk romanının inkişaf tarixi yalnız ədəbi bir janrın təkamülü deyil, eyni zamanda türk cəmiyyətinin ictimai, siyasi və mədəni dəyişikliklərinin bədii ifadəsi kimi dəyərləndirilməlidir. Bu baxımdan türk romanı hər bir dövrün düşüncə tərzini, sosial problemlərini və mənəvi dəyərlərini əks etdirən mühüm bir ədəbi salnamə funksiyasını yerinə yetirmişdir. Müasir dövrdə də yeni mövzu və ifadə vasitələri ilə inkişafını davam etdirən türk romanı həm milli ədəbiyyatın, həm də dünya ədəbiyyatının əhəmiyyətli tərkib hissələrindən biri olaraq öz aktuallığını qorumaqdadır.

## Ədəbiyyat / *References*


1. Akyılmaz, G. (1999). Birinci Jön Türk Harekatının İdeolojisine Bir Örnek: Namık Kemal ve Fikirleri, *Selçuk Üniversitesi Sosyal Bilimler Meslek Yüksek Okulu Dergisi,* S:2, s. 233-252.
2. Aktaş, Ş. (1998). Cumhuriyet Devri Türk Edebiyatı, *Türk Dünyası El Kitabı*, III cilt. Ankara: Ankara Üniversitesi Basımevi, s. 661-719.
3. Akyüz, K. (1995). *Modern Türk Edebiyatının Ana Çizgileri*. İstanbul: İnkılâp Kitabevi.
4. Arslan, N. (2002). Eylül ya da Bir Aşkın Analizi, *Hece: Aylık Edebiyat Dergisi. Türk Romanı Özel Sayısı*, Sayı: 65/66/67, s. 560-571.
5. Boratov, P.N. (1982). *Folklor ve Edebiyat-1*. İstanbul: Adam Yayıncılık.

6. Çetin, N. (2002). Tanzimat Döneminde Türk Romanı (1860-1878), *Hece: Aylık Edebiyat Dergisi. Türk Romanı Özel Sayısı,* Sayı: 65/66/67, s. 21-33.
7. Emil, B. (1997). *Türk Kültür ve Edebiyatından: Meseleler I.* Ankara: Akçağ Yayınları.
8. Ertangil, T. Erhan Benerin Acemiler Adlı Romanı Üzerine, http://www.ertangil.com/2013/08/erhan-benerin-acemiler-adl-roman-uzerine.html [istinad tarixi: 14.02.2019].
9. Finn, R.P. (2003). *Türk Romanı (İlk Dönem: 1872-1900).* Çev. Uyar T. İstanbul: Agora Kitaplığı.
10. Gündüz, O. (2016). Cumhuriyet Dönemi Türk Romanı, *Yeni Türk Edebiyatı El Kitabı (1839-2000*), Ankara: Grafiker Yayınları, s. 399-544.
11. Issı, A.C. (2002). Türk Edebiyatının Romanla Tanışması, *Hece: Aylık Edebiyat Dergisi. Türk Romanı Özel Sayısı,* Sayı: 65/66/67, s. 16-20.
12. John, G. Cawelti (1976). *Adventure, Mystery and Romance: Formula Stories as Art and Popular Culture*. Chicago: University of Chicago Press.
13. Kabaklı, A. (2008). *Türk Edebiyatı:* 5 ciltte, - c. 3. İstanbul: Türk Edebiyatı Vakfı Yayınları.
14. Kantarcıoğlu, S. (2004). *Türk və Dünya Romanlarında Modernizm*. Ankara: Akçağ Yayınları.
15. Kaplan, M. (1971). *Tevfik Fikret. Devir-Şahsiyet-Eser*. İstanbul: Dergâh Yayınları.
16. Meriç, C. (1998). *Kırk Ambar*. İstanbul: İletişim Yayınları.
17. Moran, B. (2004). *Türk Romanına Eleştirel Bir Bakış 3*. İstanbul: İletişim Yayınları.
18. Naci, F. (1981). *100 Soruda Türkiye'de Roman ve Toplumsal Değişme*. İstanbul: Gerçek Yayınevi.
19. Türkeş, Ö. (2001). Güdük Bir Edebiyat Kanonu, *Modern Türkiye`de Siyasi Düşünce II, Kemalizm,* İstanbul: İletişim yayıncılık, s. 425-448.
20. Okay, O. (2004). Edebiyatımızın Batılılaşması yahut Yenileşmesi, *Başlangıcından Günümüze Kadar Büyük Türk Klasikleri: Tarih-Antoloji-Ansiklopedi*, VIII cild. İstanbul: Ötüken-Söğüt Yayıncılık, s. 301-315.
21. Okay, O. (2016). *Batılılaşma Devri Türk Edebiyatı. Fikirler. Türler. Topluluklar. Temalar*. İstanbul: Dergâh Yayınları.
22. Sami, Ş. (1964). *Taaşşuk-i Talat ve Fıtnat (1289/1872)*. Ankara: Ankara Üniversitesi Basımevi.
23. Şan, M.K. (1998). *Toplumsal Değişme Açısından Servet-i Fünun Romanı*. Sakarya Universiteti, (Sosyoloji bölümü, yayımlanmamış tez).
24. Tanpınar, A.H. (1977). *Edebiyat Üzerine Makaleler*. Haz. Z. Kerman. İstanbul: Dergâh Yayınları.
25. Uşaklıgil, H.Z. (1987). *Kırk Yıl (Anılar)*. İstanbul: İnkılâp Kitabevi.
26. Yalçın, A. (2012). *Siyasal ve Sosyal Değişmeler Açısından Cumhuriyet Dönemi Türk Romanı*. Ankara: Akçağ Yayınları.
27. Yazgıç, K. (1940). *Ahmet Midhat Efendi-Hayatı ve Hatıralar.* İstanbul: Tan Basımevi.
28. Yıldız, A.D. (2009). *Popüler Türk Romanları*. İstanbul: Dergâh Yayınları.